## 2023 – Heydər Əliyev İli

# AMEA-da elmi konfrans

**Yanvarın 10-da AMEA Rəyasət Heyətinin Böyük zalında Azərbaycan Milli Elmlər Akademiyasının və “Azərbaycan” qəzetinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli”nə həsr olunmuş “Heydər Əliyev dövlətçilik idealları və müasir dövr” mövzusunda elmi konfrans keçirilib.**





Elmi konfransı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli “Müstəqil dövlətçiliyin uğurlu hesabat ili” mövzusunda giriş nitqi ilə açaraq bildirib ki, bu elmi konfransla Milli Elmlər Akademiyası “Heydər Əliyev İli” üzrə keçiriləcək tədbirlərə start verir. O, ümummilli liderin dünyada görkəmli dövlət xadimi kimi qəbul olunduğunu vurğulayıb: “Heydər Əliyev yeni tarixi epoxada Azərbaycanın dövlət müstəqilliyinin banisi, qüdrətli xilaskarı və böyük qurucusu olan tarixi şəxsiyyətdir. Azərbaycan dövləti və xalqımız 1969-cu ildən başlayaraq, 54 ildir ki, Heydər Əliyev epoxasında qurub-yaradır və ölkəmiz ulu öndərin dövlətçilik ideallarının işığında hərtərəfli şəkildə inkişaf edir. Bu tarixi mərhələnin parlaq hadisələri və nailiyyətləri Heydər Əliyevin ölməz adı, böyük ideyaları və mübarizəsi ilə üzvi surətdə əlaqədardır. Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində həm beynəlxalq miqyasda, həm də respublikamızda qazandığı tarixi Zəfərlər, həyata keçirdiyi möhtəşəm proqramlarla Heydər Əliyev epoxasını daha da zənginləşdirməyə və Azərbaycan tarixinin yeni tarixini yaratmağa nail olub”.

İsa Həbibbəyli “Heydər Əliyev İli”nin müstəqil Azərbaycan dövlətinin nailiyyətlərinin təbliği baxımından da geniş meydan açdığını söyləyib: “Prezident İlham Əliyevin təşəbbüsü ilə Qərbi Azərbaycana Qayıdış konsepsiyasının hazırlanmasına dair çağırışı XXI əsrdə Azərbaycan xalqının tarixi-coğrafi və milli-mənəvi bütövlüyünə dönüşünün dərk olunmuş əhəmiyyətli bir paroludur. BMT-nin Təhlükəsizlik Şurasında şuraya sədrlik etdiyi vaxtda Fransanın təcavüzkar Ermənistanla əlaqədar məkrli planlarının həyata keçirilməsinə imkan verilməməsi Prezident İlham Əliyevin dünya liderlərindən biri olduğunu qəti şəkildə isbat edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə mümkün ola biləcək ən yaxın dövrdə Ermənistanla Sülh sazişinin imzalanması və Zəngəzur dəhlizlərinin açılması sahəsində həlledici addımların atılması da “Heydər Əliyev İli”nə möhtəşəm töhfələr olacaqdır”.

“Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov “Heydər Əliyev və mətbuat siyasəti” mövzusunda məruzə ilə çıxış edib. Müasir Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin qeyri-adi zəka və təşkilatçılıq bacarığına malik şəxsiyyət olduğunu xüsusi vurğulayan baş redaktor Sovet İttifaqının ali rəhbərliyində 30-a yaxın sahəyə məharətlə rəhbərlik etmiş ulu öndərin həmin illərdəki uğurlarının bu gün də MDB məkanında etiraf edildiyini diqqətə çatdırıb: “Ulu öndər ideoloji işin ustası, mahir bilicisi idi. “Literaturnaya qazeta”nın 18 noyabr 1981-ci il tarixli nömrəsində dərc olunmuş “Qoy ədalət zəfər çalsın” başlıqlı müsahibəsi ilə bütün SSRİ onun qətiyyətinin, müdrikliyinin, ədalət uğrunda necə mübarizə aparmasının şahidi oldu. O dövr üçün aydın səmadan şimşək kimi çaxan müsahibə həm də qarşıya qoyulan vəzifələr, ulu öndərin gördüyü və görəcəyi işlərin anonsu idi”.

B.Sadıqov ümummilli liderin ölkəmizə ikinci rəhbərliyi dövründə də mətbuatla sıx bağlı olduğunu, 6 avqust 1998-ci il tarixli Fərmanı ilə ölkəmizdə senzuranın ləğv edildiyini diqqətə çatdırıb.

Konfransda, həmçinin AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovanın “Azərbaycanda təbiət elmlərinin və aqrar elmin inkişafında Heydər Əliyevin rolu”, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürovun “Heydər Əliyev və Azərbaycanda müstəqil dövlətçilik ideyaları”, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadənin “Heydər Əliyev və Azərbaycan incəsənəti”, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədlinin “Heydər Əliyev və Azərbaycan dili məsələləri”, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun icraçı direktoru, tarix elmləri doktoru Eynulla Mədətlinin “Bir millət – iki dövlət” və AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri, kimya üzrə fəlsəfə doktoru Elmir Babayevin “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda məruzələr dinlənilib.

Tədbirdə, o cümlədən ulu öndərin həyat və fəaliyyətini əks etdirən slaydlar nümayiş etdirilib.

**“Xalq qəzeti”**